HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

30 iyun 2016-cı il
№012 (26)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / "იენი იოლი" საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

GÜRCÜSTAN GƏNCLƏRİ ORDUDA XİDMƏTDƏN AZAD OLUNURLAR

Gürcüstan müdafiə naziri Tina Xidaşeli iyunun 27-də illik məruzəsinin təqdimatı zamanı orduya məcburi çağrışın ləğv olunması haqqında əmr imzalayıb.

Qanunverici orqanın müvafiq qanunu qəbul etməyə müvəffəq olmaması, müdafiə nazirini qərar qəbul etməyə və şəxsi əmr verməyə imkan yaradan belə bir yol tapmağa sövq edib.

Xidaşeli bəyan edib: "Mən burada sizin qarşınızda orduya məcburi çağırışın ləğv edilməsi haqqında əmri imzalayıram, qərar qüvvəyə minir".

Bir qədər əvvəl nazir orduya məcburi çağırışın ləğv edilməsi haqqında qərarın 2017-ci ildə qəbul olunacağını düşünürdü.

SAĞLAMLIQ İMKANI MƏHDUD OLAN BİRİNCİ QRUP ŞƏXSLƏR VƏ UŞAQLAR ÜÇÜN SOSİAL PAKETİN HƏCMİ 180 LARİYİDƏK ARTIRILIR

Sağlamlıq imkanı məhdud olan birinci qrup şəxslər və sağlamlıq imkanı məhdud olan uşaqlar üçün sosial paket 180 lariyədək artırılıb. Bu barədə Gürcüstan Səhiyyə naziri David Sergeyenko məlumat verib.

Onun sözlərinə görə, hökumətin növbəti iclasında qəbul ediləcək qərara əsasən sağlamlıq imkanı məhdud olan birinci qrup şəxslər və sağlamlıq imkanları məhdud olan uşaqlar üçün sosial paketin həcmi artaraq 180 lari olacaq.

David Sergeyenko məhdud imkanlı şəxslərə qayğı məsələsinin dövlət üçün şərəf məsələsi olduğunu dilə gətirərək, dövlətin bu sahəyə daim diqqət yetirdiyini vurğulamışdır.

24 İL ƏRZİNDƏ ABŞ GÜRCÜSTANA 3,7 MİLYARD DOLLAR YARDIM EDİB

Son 24 il ərzində ABŞ Gürcüstana 3,7 milyard dollar məbləğində yardım edib. Bu barədə ABŞ-ın beynəlxalq inkişaf üzrə Agentliyi (USAID) başçısının Avropa və Avroasiya işləri üzrə köməkçisi Tomas Melia Tbilisidə keçirdiyi mətbuat konfransında məlumat verib.

Gürcüstan və ABŞ 23 aprel 1992-ci il tarixindən diplomatik münasibətlər yaradıb.

Melia deyib: "1992-ci ildən Gürcüstan və ABŞ-ın ikitərfəli münasibətləri əhəmiyyətli şəkildə dərinləşərək genişlənib. 24 il ərzində USAID Gürcüsatn əhalisinə 1,5 milyard dollar həcmində yardım edib. Ümumilikdə ABŞ-ın Gürcüstana yardımı 3,7 milyard dollar təşkil edib".

Bu ərafədə paytaxt Tbilisidə Gürcüstan-ABŞ strateji əməkdaşlıq xartiyasının komissiyası çərçivəsində demokratiya və idaretmə üzrə qrupun doqquzuncu görüşü keçirilib.

Gürcüstan və ABŞ arasında strateji tərəfdaşlıq haqqında xartiya 2009-cu ilin 9 yanvarında Vaşinqtonda imzalanıb. 2009-cu ilin iyununda xartiyanın bir çox istiqamətlər üzrə işçi qrupları yaradılıb.

Sənəd tərəfdaşlıq əlaqələrinin genişləndirilməsini, müdafiə və təhlükəsizlik, iqtisadiyyat, energetika, demokratik islahatlar, diplomatiya və mədəniyyət sahəsində əməkdaşlığı nəzərdə tutur.

KRİT ADASINDA ÜMUMPRAVOSLAV MƏCLİSİ KEÇİRİLİB

Krit adasında 1200 ildən sonra ilk dəfə Ümumpravoslav məclisi keçirilib.

Kilsə başçılarının indiki görüşü tarixi hadisədir. Pravoslavlar 1200 il bundan əvvəl baş vermiş parçalanmadan sonra ilk dəfə görüşüblər.

Məclisdə 14 yerli pravoslav kilsəsindən 300-dən artıq yepiskopun iştirakı gözlənilsə də, onun başlanılmasına az qalmış Rus pravoslav kilsəsi və Gürcüstan, Serbiya, Bolqarıstan pravoslav kilsələri, həmçinin Suriya prezidenti Bəşir Əsədə loyal olan Dəməşqdə yerləşən Antioxiya patriarxlığı Məclisdə iştirak etməkdən imtina ediblər. Ümumdünya pravoslav Məclisi iyunun 26-dək davam edib.

Məclis iştirakçıları altı məsələni müzakirə ediblər: Pravoslav kilsəsinin yerdə qalan xristian dünyası ilə münasibətləri, pəhriz, nikah, müasir dünyada kilsənin vəzifəsi, diaspordakı pravoslavlarla əlaqə, Pravoslav kilsələrinin muxtariyyətinin elan edilməsi. Xüsusi olaraq Məclisin müraciəti də qəbul edilib.

Bu Məclis öz statusuna görə Ümumdünya məclisi deyil. Əski Ümumdünya məclislərindən fərqli olaraq, bu məclis doqmatik xarakterli məsələləri həll etmək, kilsə qaydalarında və liturgiyada dəyişiklik etmək üçün çağırılmayıb.

AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ BAKIDA GÖRÜŞƏCƏKLƏR

Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin üçtərəfli görüşü 2016-cı ilin sonunda Bakıda keçiriləcək. Xəbəri diplomatik mənbəyə əsasən "İnterfaks-Azərbaycan" agentliyi yayıb.

"Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin sammitinin cari ilin sonlarında Bakıda keçirilməsi planlaşdırılır", – məlumatda bildirilir.

Məlumatda Bakı və Ankaranın regionun digər ölkələri ilə, xüsusilə də İran və Türkümənistanla üçtərəfli formatda görüşlər keçirməyi planlaşdırdıqları da vurğulanıb.

Agentlik diplomatik mənbəyə əsasən, görüşün gündəliyinin və dəqiq tarixinin üç ölkənin dövlət başçılarının nümayəndələrinin məsləhətməşlərindən sonra bəlli olacağını da açıqlayıb.

GÜRCÜSTAN, TÜRKİYƏ VƏ AZƏRBAYCAN MÜDAFİƏ NAZİRLƏRİNİN GÖRÜŞÜ BATUMİDƏ KEÇİRİLƏCƏK

Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin növbəti görüşü iyulun sonu-avvqustun əvvəlində Batumidə baş tutacaq. Bu barədə Gürcüstan müdafiə naziri Tinatin Xidaşeli məlumat verib.

Nazir üç ölkənin müdafiə nazirliklərinin imzalanması həmin görüşdə baş tutacaq Memorandum üzərində işlədiyini qeyd edib.

Tinatin Xidaşeli bildirib: "Türkiyə müdafiə nazirinin dəyişdirilməsi bizim görüşümüzü bir qədər gecikdirdi. Biz bu görüşün iyulun əvvəlində keçirilməsini planlaşdırmışdıq, lakin o, iyulun sonu-avqustun əvvəlində Batumidə keçiriləcək. Görüşdə Memorandum imzalanacaq. Biz bütün məsələlərin birgə həlli üçün səy göstəririk".

MSK-DA 13-CÜ PARTİYA QEYDİYYATDAN KEÇİB

Xalq partiyası MSK tərəfindən qeydiyyata alınmış 13-cü partiya oldu. Qeydiyyat üçün MSK-ya 47 partiya müraciət edib.İyunun 20-də isə parlament seçkilərində iştirak üçün ərizə verən 39 partiyadan 12-si qeydiyyatdan keçmişdi.

Gürcüstan parlamentinə seçkilər 8 oktyabr tarixinə təyin edilib. Seçki kampaniyası isə iyunun 8-də başlayıb. Həmin gün MSK-ya seçkidə iştirak etmək niyyətində olan 26 partiyanın müraciəti daxil olmuşdu.Gürcüstan MSK-nın 24 iyuna olan məlumatına görə, seçkilərdə iştirak etmək üçün artıq 47 partiya müraciət edib.

Onlardan 13-ü MSK-da qeydiyyatdan keçib: "Gürcü arzusu – Demokratik Gürcüstan" (Georgi Kvirikaşvili və Kaxa Kaladze), "Vahid Milli Hərəkat" (Serqo Ratiani), "Azad demokratlar" (İraqli Alasaniya), "Gürcüstan vətənpərvərlər alyansı" (David Tarxan-Mouravi), "Vahid demokratik hərəkat" (Nino Burcanadze), "Avropa demokratları" (Paata Davitaya), "Bizim Vətən" (Zviad Çitişvili), Xalq partiyası (Mamuka Giorqadze), "Gürcüstan" (Georgi Liluaşvili), Gürcüstan Kommunist partiyası (İvane Tsiklauri), "Xalq hakimiyyəti" (Zurab Kobiaşvili), "Gürcüstan sülh uğurunda" (David Tevzadze), "Ədalətin bərpa olunması üçün millətin səsi ittifaqı: Yaradan – bizim həqiqətimiz" (Mixail Saluaşvili). Qeyd edək ki, mötərizədə partiya liderlərinin adı və soyadı göstərilib.

MSK-nın məlumatına görə, parlament seçkilərinin keçirilməsi üçün 73 seçki dairəsi açılıb, 3 473 316 seçici qeydiyyatdan keçib.

BİZ ÖZÜMÜZ KİMİ OYNAYIRIQ

Qardaş, qara daşa dönüm ki, alma budağından gen düşməz. Bunu sən də bilirsən, mən də. Hər bir canlının balası, vallah-billah, nə qədər o yan, bu yan eləsən də, az-çox özünə oxşayır. Deyək ki, bir atanın oğulu və ya bir ananın qızı valideyninə oxşayır. Bu zaman qurddanquşun biri qalxıb demirmi ki, fırt eləyib düşüb atasının (anasının da deyə bilər, bunun bizim mövzumuza bir elə də isti-soyuğu yoxdur. Pardon, əslində elə bizim mövzumuz bununla bağlı olmalıdır) burnundan. ...

Əcnəbilər Avropa çempionatına baxırlar ki, zövq alıb əylənsinlər. Biz də baxıb qanımızı qaraltdıq. Niyə? Niyəsini söyləyim. Türkiyə qurp mərhələsini keçə bilmədi, elə bildik dünya dağıldı.

Və başladıq Fateh Terimi fitləməyə, Arda Turanı fitə basmağa, bir başqasını lənətləməyə. Həmin məqamda əlimizə düşsəydilər yəqin daşqalaq da edərdik, ətlərini şişə də taxardıq. Nədir ki, komanda olaraq uduzmuşuq, qrup mərhələsini keçə bilməmişik, külli-aləmdə biabır olmuşuq, namusumuz əldən gedib. İndi kimə azarkeşlik edək, başımıza haranın daşını salaq? Bir dayanın, bəylər, Türkiyə millisinin Avropa çempionatında uduzmağı ilə dünyanın axırı gəlmir ki? Bu, bir. İkincisi, bu yarışmadan təkcə Türkiyəmi məğlub kimi ayrıldı, yoxsa onunla eyni taleyi yaşayanlar da oldumu? Əlbəttə, qrup mərhələsini keçə bilməyən təkcə Türkiyənin oyunçuları deyildi, onlarla və hətta onlardan da bərbad nəticə ilə bu böyük yarışmanı tərk edənlər oldu. Elə təkcə bizmi namus dağarcığıyıq, başqalarının namusu yoxdumu deyirsiniz, bəylər? Biz şərəf mücəssiməsi olaraq təkmi yaradılmışıq? Bax, mən təkcə bunu anlamıram.

Bəs Cüneyd Çakır bizdən deyilmi? Ən böyük yarışmalarda, elə bu Avropa çempionatında da başımızı uca edəcək təşkilatçılığı ilə, prinsipiallığı ilə türk toplumlarını layiqincə təmsil etmirmi?

Keçmiş Avropa və dünya çempionu, futbol ölkəsi İspaniya uduzdu. İspanlar qaramı geyindi? İspanlar futbolçularına ağıllarına gələni, dişlərinin dibindən çıxanı söylədilərmi? İngilislər də səkkizdə biri keçə bilmədilər. Sizi əmin edirəm ki, ingilis xalqı bunu özünə dərd etmədi. Nədən ki, ingilislər dörd ildən sonra bir Avropa çempionatının yenə də keçiriləcəyini və ya iki il sonra futbol üzrə növbəti dünya çempionatının baş tutacağını gözəlcə anlayaraq gələcək üstündə köklənməyi bacarırlar. Üstəgəl, ingilislər daha önəmli, öz ölkələri üçün daha taleyüklü məsələlərin arxasınca düşüblər. Brexit-in onlara nə gətirəcəyini və ya bu qərara gəlməklə nə itirəcəklərini hesablamaqla məşğuldurlar. Bizim bir millət olaraq başqa dərdimiz-azarımız yoxdurmu? Bizi təhdid edən dünyaya qarşı özümüzü aşağılayan, yağılarımızı sevindirən hərəkətlərimizləmi durmağı düşünürük? Bizim futboldan başqa o qədər çözməli müşküllərimiz var ki, deməklə qurtaran deyil. Türkiyəmizin iç savaşın astanasında olduğunu özümüz də bilirik, bu savaşı fitilləyənlər də. Çalxalanan dünyada Türkiyə də, digər türk toplumları da öz yerlərini bəlirləməli, dünyaya yalnız ağıl və dərrakə, elm və qabiliyyət yolu ilə öz sözlərini diqtə etməlidirlər. Digər bir yolumuzun olduğunu bilirsinizsə söyləyin, biz də bilək.

Həyat tək bir futboldan ibarət deyil. Futbolsevərlərin qınağına gəlsəm də, deməyi özümə borc bilirəm ki, heç indiki futbolun dadı-duzu da qalmayıb, heç futbol biçarədə futbolluq qalmağa da qoymayıblar. Mərc kontorları iddiaları ilə futbolu biznesə, insanları isə səfil-sərgərdana çeviriblər. Ruslar Avro 2016-dan 1 xalla döndülər, türklər 3 xalla. İnanmıram ki, ruslar öz futbolçularını bu urvata salsınlar. İnanmıram ki, ruslar öz oyunçularını bu cür qarşılasınlar. Uduzsalar da, qrup mərhələsini keçməsələr də öz komandalarına belə münasibət sərgiləməzlər. Ən azından dost-düşmənin varlığından xəbərləri var.

Hindistanın, Çinin futbol ənənəsi yoxdur. Onlar ağlaşma-şivənmi qururlar? Onlar özlərini dünyaya başqa keyfiyyətlərilə, heç kimdə olmayan özəllikləri ilə tanıdırlar. Yəni demək istədiyim odur ki, hamı eyni səviyyədə futbol oynaya bilməz, hətta heç hamı eyni cür kəlləmayallaq da aşa bilməz. Biz isə dostumuzu-düşmənimizi tanımayacaq qədər çılğınlıq göstərməkdən usanan deyilik. Bir atımlıq barıtımız var, o da quru olanda atırıq (nəm çəkəndə isə gözümüzü döyə-döyə qalırıq), sonra da sonrakı peşmançılığın fayda vermədiyini də çox gözəl anlayaraq peşman-peşman niyə belə etdik deyib pisikirik.

Elə bilməyin ki, mən yazımın əvvəlinci abzasının natamam qaldığının fərqinə varmamışam. Bunu bəlkə də yanlışlıqla, bəlkə də bilərəkdən etdim. Qüsura baxmayın, bəylər. Mən yazımın başı ilə ayağının bir-birilə uyğun gəlməsi, tutuşması xatirinə belə bir üslub seçdiyimin də fərqindəyəm. Sonda bütün deyilənlərə rəğmən onu qulluğunuza ərz edim ki, hər xalq, hər toplum özünə uyğun maddi və mənəvi dəyərlər yaradır. Və onun yaratdıqları bu və ya digər dərəcədə özünə bənzəyir. Söz futboldan düşmüşkən qulluğunuza onu da ərz edim ki, bizim futbolumuz da özümüzə oxşayır və ya biz futbolumuzu da özümüz kimi oynayırıq. Çılğın, emosiyalarımızı cilovlaya bilmədən... və məğlub oluruq. Bunun günahının kimdə olduğunu soruşmaq istəyirsinizsə deyərəm. Günahın böyüyü özümüzdədir. Nədən ki, biz məğlubiyyətimizdən nəticə çıxarmadan oynayırıq. Bu da bizim növbəti məğlubiyyətimizə çevrilir...

Afiq MUXTAROĞLU

QARDABANİDƏ TƏNTƏNƏLİ İFTAR AXŞAMI KEÇİRİLDİ

İyunun 16-da Qardabanidə 300 nəfərə yaxın insanı bir araya gətirən müqəddəs Ramazan ayı münasibətilə iftar süfrəsi təşkil edildi. İftar süfrəsi Əziz Mahmud Hüdayi vəqfinin maliyyə dəstəyi və Gürcüstan Gənclərinə Yardım və Maariflendirmə Təşkilatının təşkilatçılığı ilə baş tutdu.

İftar mərasimi Marneulidəki II Kosalı İslam mədrəsəsinin müdiri Hacı Natiq Əliyevin oxuduğu əzan və Qurani-Kərimdən ayələrlə başladı.

Daha sonra mərasimin aparıcısı Hacı Bəkiroğlu toplaşanları salamlayaraq, tutulan orucların, edilən duaların Allah dərgahında qəbul olunması arzularını ifadə etdi, müsəlmanları müqəddəs Ramazan münasibətilə təbrik etdi.

Mərasimdə çıxış edən Gürcüstan Gənclərinə Yardım və Maariflendirmə Təşkilatının sədri Musa Hacıyev birlik, bərabərlik, qardaşlıq və paylaşım ayı olan Ramazanın özəlliklərini dilə gətirərək, qonaqlara xoş arzularını bildirdi.

Kürsüyə dəvət edilən Türkiyənin Gürcüstandakı səfiri Zeki Levent Gümrükçü də mərasim iştirakçılarını qardaş türk xalqı adından salamladı, Ramazan ayının hər bir müsəlman üçün düşərli olmasını dilədi.

Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftisi Hacı Yasin Əliyev öz çıxışında on bir ayın sultanı olan Ramzan ayının məziyyətlərini dilə gətirərək, bu ayın İslam tarixində müstəsna əhəmiyyətini vurğuladı.

Qardabani icra nümayəndəsinin müavini Dünyamalı Hacıyev çıxışında bütün müsəlmanları müqəddəs Ramazan münasibətilə təbrik edərək, Gürcüstanda dinlərarası münasibətlərin üstün səviyyədə olmasını, Gürcüstan dövlətinin bütün dindarlara, o cümlədən də müsəlmanlara qayğı göstərdiyini dilə gətirdi.

Marmara universitetinin Gənəl Türk tarixi fakultəsinin tələbəsi Cəfər Mustafalı çıxışında islam və türk tarixinin qarşılıqlı əlaqələri məsələsini vurğulayaraq, mərasim iştirakçılarına xoş arzularını bildirdi.

Türkiyə Cümhuriyyəti Diyanət İşləri Başqanlığının Gürcüstan üzrə dini müşaviri Nəbi Gümüş islam tarixində elm və biliyin müstəsna əhəmiyyətini önə çıxararaq, hər bir müsəlmanın elm dalınca getməli olduğunu vurğuladı, hər bir kəsə uğurlar arzuladı.

"Yeni Yol" qəzetinin redaktoru Afiq Muxtaroğlu çıxışında qəzetin kollektivinin tutduğu mövqe, güddüyü məqsəd barədə fikrini bildirdikdən sonra, mərasim iştirakçılarını müqəddəs ramazan münasibətilə təbrik etdi.

Mərasimdə çıxış edən "Yeni Yol"un əməkdaşı Sahib Mustafa da mərasim iştirakçılarını təbrik edərək, onlara uğurlar arzuladı.

Onu da qeyd edək ki, "Yeni Yol" qəzetinin bir illik fəaliyyəti münasibətilə qəzetin fəal yazarları Afiq Muxtaroğlu, Afayət Afiq, Sahib Mustafa, Elsevər Əhmədov və Hacı Bəkiroğluna Gürcüstan Gənclərinə Yardım və Maariflendirmə Təşkilatı tərəfindən təşəkkürnamə ilə mükafatlandırıldılar.

Tədbiri II Kosalı İslam Mədrəsəsinin tələbəsi Elnur Əlləzov və Qardabani Gənclər Mərkəzinin nəzdində fəaliyyət göstərən "Gül" uşaq bağçasının şagirdləri oxuduqları dini musiqi və şeirlərlə daha da şənləndirdilər.

Məclis II Kosalı İslam Mədrəsəsinin müəllimi Ruslan Hacıxəlilovun oxuduğu dua ilə başa çatdı.

GÜRCÜSTANDA AZƏRBYACANLI MÜƏLLİMLƏR İTTİFAQI TƏSİS OLUNDU

Bu günlərdə Gürcüstanın Qardabani rayonundakı Kəpənəkçi içtimai məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi Səadət Zeynal qızı Quliyevanın təşəbbüsü ilə yeni qeyri-hökumət təşkilatı – "Gürcüstanda Azərbyacanlı Müəllimlər İttifaqı" (GAMİ) təsis edilib.

Verilən məlumatda artıq təşkilatın Gürcüstanın Ədliyyə Nazirliyində rəsmi qeydiyyata alındığı da bildirilir.

"Gürcüstanda Azərbaycanlı Müəllimlər İttifaqı" təşkilatının əsas məqsədi Gürcüstanda yaşayan azərbaycanlıların, xüsusilə də məktəblilərin dövlət dili olan gürcü dilini daha yaxşı öyrənmələrinə dəstək göstərmək, Azərbaycan-gürcü məktəbləri arasında dosltuq münasibətləri yaratmaq, azərbaycandilli məktəblərin mövcud problemlərini Gürcüstanın təhsil və elm nazirliyi qarşısında qaldırmaq, eləcə də məktəb şagirdləri arasında bir sıra ıintellektual yarışmalar təşkil etmək və s. bu kimi digər işlərin həyata keçirilməsinə nail olmaqdır.

BİR AYLIQ ORUCUN TOPLU İFTARI - RAMAZAN BAYRAMI

Bayram bir sevinc günüdür. Duyğuların coşduğu, sevgi və hörmət hisslərinin möminlər arasında canlandığı gözəl günlərdən biridir. Bayram insanları bir araya gətirən ən gözəl vəsilələrdən biridir. Belə ki, bayramda yaşanan yardımlaşma və hədiyyələşmə yalnız həyatda olanlara bağlı qalmaz, qəbirlərində bir Fatihə gözləyənlərə qədər uzanar. Onların bu diləyini yerinə yetirmək üçün möminlər bayramda qəbirləri ziyarət edərlər; ruhlarına Quranlar, Fatihələr və dualar oxuyaraq onları da yad edərlər.

Ramazan Bayramının möminlər arasında ayrı bir yeri vardır. Çünki Ramazan Bayramı, hər gün tutulan orucun iftar vaxtındakı sevinci kimi, tutulan bir aylıq orucun toplu bir iftar sevincini ifadə edir. Bir ay kimi uzun bir müddətlə, xüsusilə Ramazanın son illərdə yay mövsümünə təsadüf etdiyi isti günlərdə

nəfslərinə oruc tutduran möminlər, səbir imtahanını verərək mənəvi məsuliyyətdən xilas olmanın sevincini Ramazan Bayramında yaşayırlar. Ramazan bayramı Hicrətin 2-ci ilindən etibarən qeyd olunmağa başlanmışdır. Ramazan orucu da ilk dəfə bu ildə fərz qılınmış, bu ayı orucla keçirən möminlər sonrakı ayın (şəvval) ilk üç gününü bayram olaraq qeyd etmişlər. Bu səbəblə bu bayrama Ramazan Bayramı deyilmişdir. Ramazan Bayramı da bu mənada bir gün olaraq qəbul edilmiş və bu bayram Ramazan orucunun iftar günü olaraq xarakterizə edilmişdir. Bunun üçündür ki, Ramazan Bayramlarında oruc tutmaq haram qılınmışdır. Hər kəs bir gün əvvəl kimin əmrinə uyğun gələrək oruc tutursa, bu gün də Onun razılığına uyğun gələrək orucunu açar. Və Onun gerçək nemət Sahibi olduğunu haqqıyla idrak edərək, gerçək bir şükrə yol tapar. Bayram bir aylıq orucun toplu bir iftarı olduğu üçün, gündəlik iftarların sünnə növündən ədəbi bayramda da yerinə yetirilər. Necə ki, orucunu şirin bir şeylə açmağı adət edən Peyğəmbər Əfəndimiz Əleyhissalatu Vəssalam, Ramazan Bayramına da şirin yeyərək başlayardı. Bayram səhərində xurma kimi bir şirni ilə bir aylıq orucunu açmadan evindən ayrılmazdı. Ramazan Bayramı, bağışlanmış olmanın bir sevinc işarəsidir. Bu bağışlanma müjdəsini insanlara mələklər verir. Ramazan Bayramı səhəri mələklər yollara tökülər və belə səslənərlər:

"Ey Müsəlmanlar birliyi! Kərəmi bol olan Rəbbinizin rəhmətinə qaçışın. O, bol yaxşılıq və lütfkarlıqda olur. Sonra onlara bol-bol mükafatlar verələr. Siz gecə ibadət etməklə əmr olundunuz və əmri yerinə yetirdiniz. Gündüz oruc tutmaqla əmr olundunuz, orucu tutdunuz və Rəbbinizə itaət edin, mükafatınızı alın. Bayramda erkən qalxmaq, qüsl almaq, misvak istifadə etmək, gözəl qoxu sürmək, yeni və təmiz paltar geymək, sevindiyini bildirmək sünnədir.

Bayram günü üzük taxmaq, qarşılaşdığı möminlərə gülərüzlə salam vermək, kasıblara çox sədəqə vermək, İslamiyyətə doğru olaraq xidmət edənlərə kömək etmək, incikləri barışdırmaq, qohumu, din qardaşlarını ziyarət etmək, onlara hədiyyə aparmaq sünnədir.

Dostluq və qardaşlığın artdığı gözəl bir bayram diləyi ilə Ramazan Bayramınızı təbrik edir, bütün İslam aləminə və insanlığa xeyirlər gətirməsini Uca Mövladan niyaz edirəm.

Hacı BƏKİROĞLU

QARDABANİDƏ SİLSİLƏ İFTAR SÜFRƏLƏRİ TƏŞKİL OLUNUB

Gürcüstan əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin dinc yanaşı yaşadığı nadir ölkələrdəndir. Gürcülərin xristian olmalarına baxmayaraq, burada yaşayan digər dinlərin nümayəndələrinə münasibətdə onların tutduqları mövqe öz tolerantlığı ilə fərqlənir. Ölkəmizdə dini dözümlülük anlayışı sözdə yox, əməldə öz təsdiqini tapıb. Bu ilin ramazan ayında da biz bunun şahidi oluruq. Nümunə üçün söyləyək ki, Ramazan ayının başlanması münasibətilə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili ölkə müsəlmanlarını unutmamış, onları bu münasibətlə təbrik etmişdir. İyunun 29-da isə baş nazir ölkə müsəlmanlarının bir qrupunu iftara dəvət etmişdir.

Bu sahədə Qardabani rayonunda da bir sıra tədbirlər həyata keçirilib. Qardabani icra nümayəndəsinin müavini Dünyamalı Hacıyevdən aldığımız məlumata görə, iyunun 24-dən başlayaraq rayonun bir çox yaşayış məntəqəsində müsəlmanlarlarla iftar süfrəsi arxasında ənənəvi görüşlər baş tutub. İlk iftar süfrəsi Qardabani şəhərində yaşayan müsəlmanlar üçün təşkil olunub. İftar süfrəsi arxasında dindarlarla yanaşı rayon rəsmiləri də əyləşiblər. Rayon icra başçısı Qoça Camaralauri, onun birinci müavini Zviad Maçabeli, müavinləri Dünyamalı Hacıyev, İrakli Çelidze və rayon sakrebulosunun müavini Rəfi Orucov mərasimdə iştirak edərək, müsəlmanları müqəddəs ramazan münasibətilə təbrik etmişlər.

Dünyamalı Hacıyevin verdiyi məlumata görə, artıq rayonun Kosalı, Nəzərli, Qaracalar, Ağtəhlə, Qaratəhlə, Kalinino, Vaxtanqisi, Muğanlı kənlərində müsəlmanlar üçün iftar süfrələrinin təşkili başa çatıb. İyulun 1-də isə rayonun Candar kəndində iftar sürəsi təşkil etmək nəzərdə tutulur.

Qeyd edək ki, iftar süfrələri rayon icra hakimiyyətinin vəsaiti hesabına təşkil olunub.

BAŞ NAZİR MÜSƏLMANLARI İFTAR SÜFRƏSİNDƏ QARŞILADI

Gürcütanın baş naziri Georgi Kvirikaşvili iyunun 29-da ölkədə yaşayan müsəlman icmasının nümayəndələrini iftar süfrəsinə qonaq edib, onları müsəlmanların müqəddəs razaman ayı münasibətilə təbrik edib. Bu barədə baş nazirin Facebook səhifəsində məlumat verilib.

Çıxışı zamanı baş nazir iyunun 28-də Türkiyədə baş verən terror aktı ilə bağlı üzüntüsünü dilə gətirərək, həlak olanların ailələrinə və Türkiyə dövlətinə başsağlığını bir daha bildirərək, terrorizmin din və millət tanımayan insanlıq düşməni olduğunu bildirib. Giorgi Kvirikaşvili Türkiyənin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Levent Gümrükçüyə də iftara qatıldığı və birlik, dostluq nümayiş etdirdiyi üçün təşəkkürünü bildirib.

Baş nazir çıxışında, Gürcüstanda əsrlər boyu xristian və müsəlman aləminin birlikdə əmin-amanlıq şəraitində

yaşadığını və bunun dünyada nadir hal olduğunu xüsusi vurğulayıb. Gürcüstan baş naziri müsəlmanları yaxınlaşan ramazan bayramı münasibətilə əvvəlcədən təbrik edib, onlara mənəvi rahatlıq və xoş güzəran arzulayıb.

Baş nazir təfərindən verilən iftar yeməyində Gürcüstanda yaşayan müsəlman icmasının nümayəndələri ilə yanaşı, Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zəki Levent Gümrükçü və Türkmənistanın fövqəladə və səlahiyyətli səfiri Dövlətmurad Muradov iştirak ediblər.

GYMD ÖLKƏMİZİN BİR SIRA BÖLGƏLƏRİNDƏ MÜSƏLMANLARI BİR ARAYA GƏTİRƏN İFTAR SÜFRƏLƏRİ TƏŞKİL EDİB

Dilindən, irqindən, tutduğu sosial vəziyyətdən asılı olmayaraq, bütün müsəlmanların qardaşlığını elan edən İslamın müqəddəs kitabı Qurani-Kərimin nazil olduğu müqəddəs Ramazan ayı özünün bütün gözəllikləri ilə müsəlmanları yenə də bir araya gətirməkdədir. Ramazan ayının özəlliklərindən biri də oruclu dindaşların iftar süfrəsi ətrafında birləşərək oruclarını birgə açmalarıdır. Ramazan ayı boyunca çoxsaylı iftar süfrələrinin açılması və müsəlmanların eyni süfrədən eyni təamları dadması bu ayın ən yaddaqalan səhifələrindəndir.

Bu ənənəni bütün meyarlara əməl etməklə yaşadanlar ölkəmizdə Ramazan boyunca bir çox tədbirlər, o cümlədən də iftar süfrələri açmışlar və açmaqda da davam edirlər.

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə, Bütün Gürcüstan Müsəlmanlar İdarəsinin təşkilatçılığı və Əziz Mahmud Hüdayi vəqfinin maddi yardımı ilə ölkəmizin müxtəlif bölgələrində iftar süfrələri təşkil olunub və Ramazan ayının sonunadək bu təşəbbüs davam etdiriləcək. Bu barədə Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının nümayəndəsi Hacı Hacıyev məlumat verib.

Onun sözlərinə görə, artıq Qardabani şəhərində, rayonun Vaxtanqisi, Vağzal (İstisu) kəndlərində, Marneuli rayonun Hacıisə, Sadaxlı, Keşəli, II Kosalı İslam mədrəsəsində, Tetriçxaro rayonunun Çinçxaro, Dmanisi rayonunun Hamamlı, Bolnisi rayonun Kəpənəkçi, Qoşakilsə, Gülaver (Qeta), Saqareco rayonun Yor-Muğanlı (Qaraçöp) ərazi vahidliyində iftar axşamları keçirilib. Ramazan ayı başa çatanadək Pankisi dərəsində və Kvareli rayonunda da bu cür mərasimlərin keçirilməsi nəzərdə tutulur.

Sonda Hacı Hacıyev yerlərdə iftar axşamlarının yüksək səviyyədə təşkil olunmasında köməyini əsirgəməyən müsəlmanlara təşəkkür etməyi də unutmadı.

GYMD KVEMO KARTLİ REGİONUNDA 300 AİLƏYƏ ƏRZAQ YARDIMI PAYLADI

Ramazan ayı paylaşmaq və yardımlaşmaq ayıdır. Bu ayın bərəkətidir ki, imkanı olan müsəlmanlar ehtiyac sahibi olan din qardaşlarına əllərindən gəldiyi qədər köməklik edirlər. Bu cür yardımlaşmalar dünyanın hər bir tərəfində həyata keçirilir.

Artıq bir neçə ildir ki, bu cür yardım kampaniyaları Gürcüstanda da həyata keçirilməkdəir.

Hər il olduğu kimi bu il də "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"nın təşəbbüsü və təşkilatçılığı, Türkiyədə fəaliyyət göstərən "Əziz Mahmud Hüdayi Vəqfi"nin maddi dəstəyi ilə Gürcüstanın müxtəlif bölgələrində ehtiyac içində olan və aztəminatlı 300-dən çox ailəyə növbəti ərzaq yardımı edildi.

BREXİT – İNGİLTƏRƏNİN QAZANCLARI VƏ İTKİLƏRİ

Nəhayət ki, Böyük Britaniyanın Avropa İttifaqı ilə münasibətlərinə aydınlıq gəldi. 23 iyun 2016-cı ildə Böyük Britaniyanın İttifaqın tərkibində qalıb-qalmamasına dair keçirilmiş ümumxalq səsverməsi "Brexit" tərəfdarlarının qalibiyyəti ilə nəticələndi. Yaxın gələcəkdə Krallıq ölkəsi dünyanın ən böyük ticari-iqtisadi qrumu olan Avropa İttifaqını tərk edəcək. Tərketmənin prosedur qaydaları Lissabon sazişinə uyğun olaraq 2 il vaxt aparacaq. Brexit ingiliscə "britain" və "exit" sözlərinin birləşməsindən əmələ gələn termindir və mənası da "Britaniya" və " çıxış", yəni Böyük Britaniyanın Avropa İttifaqından çıxması anlamına gəlir. Bu tarix Avropa İttifaqının tarixində qara gün kimi yadda qalacaq. Məhz adıgedən İttifaqın və köhnə qitənin aparıcı dövlət başçıları artıq bu günü belə adlandırmağa başlayıblar.

"Brexit Avropa İttifaqının sonunun başlanğıcıdırmı, Dumanlı Albion ölkəsi nə üçün qurumu tərk etdi, bu tarixi olay qlobal dünya iqtisadiyyatına nə dərəcədə təsir edəcək, beynəlxalq siyasətdə Böyük Britaniya ilə əks qütübdə yer alan hansı ölkələr əlavə siyasi dividendlər əldə edəcək" kimi suallara ötəri də olsa aydınlıq gətirmək yerinə düşərdi.

İlk öncə britaniyalıların Avropa İttifaqından çıxmaq arzusu 1975-ci ildən baş qaldırmışdır. Həmin vaxt keşirilmiş referendumda Brexit tərəfdarları məğlub olmuşdular. "Daim çeynənilən saqqızın nə vaxtsa cürüməsi qaçılmazdır" prinsipi ilə yanaşsaq, Britaniyanın da gec-tez İttifaqı tərk edəcəyi üfüqdə görünənlərdən idi. Krallıq ölkəsi sakinlərinin yarıdan çoxunun fikrincə, Böyük Britaniyanın Avropa İttifaqında varlığı onlar üçün əlavə xərcdən başqa bir şey deyil və bu ölkə hər il 11 milyard funt sterlinq əlavə məsrəf ödəyir. Digər mühafizəkar düşüncəli albionlular hesab edirlər ki, qeyd olunan təşkilat uzun əsrlər boyu formalaşmış mühafizəkar ingilis dövlətçiliyinin təməl prinsiplərini laxladır. Ona görə də bu addımı yaxın prespektivdə ənənəvi Britaniya həyat tərzinin və dünyagörüşünün digər mədəniyyətlərlə konsolidasiyadan sığortalamaq cəhdi kimi qiymətləndirilməlidir. Zatən, Böyük Britaniyanın Avropa İttifaqının üzvü olduğu halda təşkilatın "Şengen", "Avrozona" kimi tutarlı institutlarında təmsil olunmaması sadalanan amillərə əyani sübutdur.

Referendumun nəticələrinin açıqlanmasından dərhal sonra dünya birjaları da tələtümlü anlar yaşadı. Avropanın ən böyük əmtəə və qiymətli kağızlar bazarı olan London Fond birjası dəyər itkilərinə məruz qaldı. Funt sterlinqin ABŞ dollarına qarşı məzənnəsi 1,35 dollar təşkil etdi ki, bu da 1985-ci ildən bəri ən aşağı göstəricidir. Bundan başqa, dünyanın aparıcı brend şirkətlərinin səhmləri nəzərəçarpacaq dərəcədə dəyər düşüşü yaşadı.

Brexit Avropanın siyasi arenasında sağmeyilli elementlərin fəallaşmasına da stimul verəcək. Belə ki, artıq İttifaqa daxil olan Fransa, Niderland və Finlandiya kimi ölkələrdə ultrasağ idealogiyaya malik olan siyasi cərəyanlar bənzər "brexitin" onların ölkələrində də reallaşmasını arzulayırlar. Bu barədə Fransanın ifrat millətçi partiyası olan "Milli Cəbhə"nin lideri Marin Le Pen rəsmi açıqlama vermişdir.

Böyük Britaniyanın Avropa İttifaqından çıxmasının Rusiyanın siyasi maraqları ilə düz mütənasiblik təşkil etdiyini də söyləmək olar. Düzdür, qısa zaman kəsiyində Kremlin iqtisadi priaritetləri müəyyən dərəcədə zərər görsə də, siyasi baxışları ilə tərs mütənasiblik təşkil edən sanballı bir təşkilatın parçalanması ehtimalını Rusiya üçün arzuedilən faktor kimi qiymətləndirmək olar.

Hər zaman Ankaraya siyasi dəstək verən, onun Avropa İttifaqında layiqli yerini tutmasına çalışan Böyük Britaniyanın bu təşkilatı tərk etməsinin Türkiyənin çıxarılarına zidd olması isə açıq-aşkar bəllidir.

Çox təəssüf ki, Brexitin təsiri ölkəmizdən də yan keçmədi. Sözügedən referendumdan sonra larinin ABŞ dollarına nisbətdə nəzərəçarpacaq dərəcədə uçuzlaşması qeydə alındı. Bir çox dünya liderləri kimi, Gürcüstanın baş naziri Georgi Kvirikaşvili də Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsi ilə əlaqədar keçirilmiş referendumun nəticələrindən təəssüfləndiyini bildirsə də, lakin britaniyalıların qərarına hörmət bəslədiyini bəyan etmişdir.

Sahib MUSTAFA

NATO BAŞ KATİBİNİN MÜAVİNİ VƏZİFƏSİNİ QADIN TUTACAQ

Rouz Qettemüller NATO baş katibinin yeni müavini olacaq. O, bu vəzifədə Aleksandr Verşbounu əvəz edəcək. Bu barədə iyunun 27-də alyansın rəsmi səhifəsində məlumat verilib.

Mətbuat üçün məlumatda NATO-nun baş katibi Yens Stoltenberqin Rouz Qettemülleri özünün yeni müavini təyin etməsi haqqında qərar qəbul etdiyi bildirilir. O, öz vəzifəsinin icrasına 1 oktyabr 2016-cı il tarixindən başlayacaq.

Hazırda Qettemüllüer ABŞ dövlət katibinin silahlanmaya nəzarət və beynəlxalq təhlükəsizlik üzrə müavini vəzifəsini daşıyır.

O, strateji hücum silahlarının ixtisar olunması haqqında razılaşmanın hazırlanması üzrə danışıqlarda ABŞ nümayəndə heyətinin başçısı olub. Qettemüller Moskvada Karneqi Mərkəzinin direktoru olub, rus dilini sərbəst şəkildə bilir.

BÖYÜK BRİTANİYA AVROPA BİRLİYNDƏN ÇIXDI

Böyük Britaniyada ölkənin Avropa İttifaqında qalıb-qalmayacağını müəyyənləşdirən referendumun nəticələri açıqlanıb.

Seçicilərin 72%-i səsvermədə iştirak edib.

Seçicilərin 52%-i Britaniyanın Aİ-dən çıxmasına, 48%-i isə qalmasına səs verib.

Böyük Britaniyanın Avropa Birliyindən çıxmasının tərəfdarları 16,7 milyonluq səs həddini keçərək referendumda qalib gəliblər.

İyunun 23-də Britaniyada keçirilən referndumda seçicilər iki sualdan birini cavablandırıb: Birləşmiş Krallıq Avropa Birliyinin üzvü olmalıdırmı? Birləşmiş Krallıq Avropa Birliyindən çıxmalıdırmı? Referendumda iştirak etmək üçün 46,5 milyon seçici qeydiyyatdan keçmişdi. Bu Britaniya üçün rekord sayılır.

Böyük Britaniyada keçirilən bu son referendumda seçici fəallığı 72,1% olub.

TÜRKİYƏ VƏ İSRAİL ARASINDA SAZİŞ İMZALANDI

Türkiyə-İsrail ikitərəfli münasibətlərinin normallaşdırılması haqqında razılaşma iyunun 26-da Romada imzalanıb.

Sazişdə Ankaranın tələbləri tam və ya qismən qəbul edilib.

Mətndə İsrailin 2013-cü ilin mart ayında Türkiyənin ilk tələbini yerinə yetirdiyini və mövcudluq tarixində ilk dəfə "xarici bir dövlətdən üzr istədiyi" vurğulanıb. Əldə olunan razılaşma çərçivəsində Türkiyənin təzminat şərti də İsrail tərəfindən qəbul edilib. İsrail hadisə zamanı öldürülənlərin ailələrinə 20 milyon dollar təzminat ayırıb.

Razılaşmaya əsasən, Türkiyə Qəzzaya humanitar yardım da daxil olmaqla, mülki məqsədli vəsaitlər göndərəcək, bölgənin infrastrukturunun qurulmasına və bərpasına investisiya qoya biləcək. Qəzza əhalisinin istifadəsi üçün yaşayış məskənlərinin inşa ediləcəyi və 200 çarpayılıq Türkiyə-Fələstin Dostluq xəstəxanasının açılacağı gözlənilir.

Qeyd edək ki, 2010-cu ilin may ayında İsrailin Fələstinə qarşı tətbiq etdiyi embarqonu yarmaq üçün türk gəmisi "Mavi Marmara" Qəzza zolağına hümanitar yardım apararkən, İsrail xüsusi təyinatlılarının hücumuna məruz qalmışdı. Hücum beynəlxalq sularda baş vermiş və 10 xeyirsevər türk öldürülmüşdü. O zamandan Türkiyə-İsrail münasibətləri pisləşmiş, Ankara Təl-əviv qarşısında hadisəyə görə üzr istəmək, Qəzzaya qarşı tətbiq olunan embarqonu ləğv etmək və gəmiyə hücum zamanı zərər çəkmişlərə təzminat ödəmək kimi 3 tələb qoymuşdu.

KRIMDA II YEKATERİNAYA QOYULAN ABİDƏ BİRMƏNALI QARŞILANMAYIB

Krımda Rusiya tarixində birmənalı qiymətləndirilməyən II Yekaterinya heykəl ucaldılması Krım tatarları üçün təhqirdir. Krım tatarları Məclisinin sədr müavini Nəriman Cəlal bu cür düşünür.

O, deyib: "Abidə qoyulması çox ciddi məsələdir və Krım əhalisinin bir hissəsinə, o cümlədən də yerli əhaliyə bədbəxtlik gətirən, onun dövlətçiliyini məhv edən hökmdara abidə qoymaq bizim üçün təhqirdir".

Ağməscid (Simferopol) şəhərinin mədəniyyət və istirahət parkında bu günlərdə II Yekaterinaya abidə ucaldılıb. Onun hakimiyyəti dövründə Rusiya imperiyası Krım xanlığını məhv etmiş və işğalın gedişində xanlığın minlərlə təbbəsi kütləvi qırğına və sürgünə məruz qalmışdır.

Xatırladaq ki, 1944-cü ildə Krım tatarlarını yarımadadan sonuncu nəfərinədək sürgün edən Stalinə də 2015-ci ildə Yaltada heykəl ucaldılıb. "Böyük üçlük" adlandırılan abidənin müəllifi Zurab Seretelidir. Abidə mütəffiqlərin Yalta konfransı şərəfinə yaradılıb. Bu abidədə Ruzvelt, Çörçill və Stalin təsvir olunur. 2005-ci ildə yarımadanın Ukrayna hakimiyyəti bu abidənin ucaldılmasına imkan verməmişdi. Bu yalnız Krımın Rusiya tərəfindən işğalından sonra mümkün olmuşdur. II Yekaterinanı və Ruzveltlə Çörçilldən maska kimi istifadə edərək Stalini heykəlləşdirmək istəyən Rusiyanın məqsədi Krımın tək sahibi olduğunu dünyaya bildirməkdir.

ABŞ-IN HƏR YEDDİ SAKİNİNDƏN BİRİ YOXSULLUQ HƏDDİNDƏ YAŞAYIR

Beynəlxalq Valyuta Fondu (BVF) ABŞ-da yoxsulluğun yüksək səviyyədə olduğunu vurğulayıb. BVF-nun məlumatına görə, hazırda ABŞ-da ölkənin hər yeddi sakinindən biri kasıbdır.

Fondun illik məruzəsində Amerika iqtisadiyyatının vəziyyəti haqqında söhbət gedərkən, ABŞ hakimiyyətinin təcili şəkildə yoxsulluq problemlərinin həll olunması üçün tədbirlər görməsi vurğulanır.

BVF Vaşinqtona minimal əmək haqqının səviyyəsini yüksəltməyi və daha çox qadını işə cəlb etmək üçün əvəzi ödənilən analıq məzuniyyəti təklif etməyi tövsiyyə edir.

Fondun ekspertləri ABŞ-ı təhsil və sosial proqramlara daha çox investisiya qoymağa çağırır.

BVF 2016-cı ildə Amerika iqtisadiyyatı üçün bədbin proqnoz verir. Ölkə iqtisadiyyatının 2,4% artacağını proqnozlaşdıran ekspertlərdən fərqli olaraq, fond ÜDM-ın 2,2% artacağını proqnozlaşdırır.

Bədbin proqnoz dünya iqtisadiyyatının zəif inkişafı və alıcı fəallığının azalması ilə əlaqədardır.

Bununla belə BVF ABŞ iqtisadiyyatının yaxşı formada olmasını qeyd edir. Belə ki, mayda ölkədə işsizliyin səviyyəsi son səkkiz ildə minimuma enərək, 4,7% təşkil edib.

SAVADSIZLIĞIN SEÇKİ DONU

Yenə ay dolanıb vədə yetir və yenə də qulağımızdan qut olacağımız bir məqamın, boğaza yığılacağımız üç ayın astanasına yaxınlaşmış vəziyyətdəyik. Hansı üç ay, nə üç ayı deyə sual çox güman ki, beyinlərimizin küncündən fırlanıb keçdi. Bu saat deyim nədən danışmaq istədiyimi, sizlər də agah olun. Seçki. Sözümün və söhbətimin bugünkü canı seçkilər, daha doğrusu və dəqiqi isə seçkiqabağı proseslər fonundakı bəzi səhnələr olacaq.

Bəli, hər il təkrarlananlar bu il də olacaq və xalqdan səs istəmək üçün bütün siyasilər, bölündükləri qruplara uyğun olaraq bildikləri, bilmədikləri, yeni, köhnə, sovetdən qalma və ya Avropadan gəlmə üsullardan istifadə edəcəklər. Yenə vədlər veriləcək, yenə hər kəs özünü rəqiblərindən fərqli göstərməyə çalışacaq. Yenə qara millətin beyni rəngli xəyallarla yuyulub, boz nəticələrlə qurudulacaq. Bütün bunlar əvvəl də dediyimiz kimi, öncəki illərin təkrarı və sadəcə təkmilləşmişi olacaq. O dərəcədə ki, sən dəyərli oxucumun yaş və təcrübə gərəyi bunları məndən daha çox görmüş və məndən daha yaxşı bilmiş olacağına zərrə şəkkim, qram şübhəm yoxdur. Mən bu yazımda, iki cümlə əvvəl qara adlandırdığım millətin düşdüyü arzuolunmaz vəziyyətin səbəblərinə toxunmaq istəyirəm. Azacıq. Yox, nə siyasət, nə də ona bənzər bir şeylə əsla maraqlanmıram. Lakin, hadisələr o qədər yaxında, o qədər dadı, qoxusu hiss ediləcək dərəcədə olur ki, ən azı vətəndaş olaraq fikir bildirmək haqqım və borcum olduğunu da düşünmədən dura bilmirəm.

Əlqərəz, hamımızın şikayətçi olduğumuz bir hal var. İndi deyəcəm və sən oxucum da bunu ilk dəfə eşitmədiyinə əmin olacaqsan. "Milləti seçkidən seçkiyə yada salırlar". Bu cümlə dəfələrlə səsləndirilib, dəfələrlə də eşitmişik. Bu bir neçə söz bizim şikayətimizin, etirazımızın və giley-güzarımızın ümumiləşmiş, qonaq qabağına çıxan son formasıdır. Nəticəsi olmayan və şəklini heç dəyişməyən bu forma illərdir özümüzü yormaqdan başqa bir işə yaramır.

Siyasət elmdir və onun bizə bizim istədiyimiz kimi işlədilməsi mümkünsüzə yaxın bir şeydir. Qədim yunan filosofu Aristotelə görə, siyasətin elm kimi dərk edilməsi mənəviyyat (fəzilətlər) haqqında təsəvvürlərin, etikanı (əxlaqı) bilməyin inkişafı deməkdir. Məhz gözəl və ədalətli olanlar siyasi elmin obyektləri olmaq iqtidarındadırlar. Lakin eyni obyektlər, fəzilətlər etikada da öyrənilirlər. Etika siyasətin başlanğıcıdır və ona girişi ifadə edir. Aristotel "Etika" əsərində etik mövzu ilə birlikdə, bir çox siyasi-hüquqi problemləri də tədqiq etmişdir. Etikanın və siyasətin qarşılıqlı əlaqəsi Aristotelin insan haqları probleminin işıqlandırılmasına dair mülahizələrində də özünü hərtərəfli nümayiş etdirir. Filosof bu iki anlayışı bir-birindən ayrılmaz şəkildə tədqiq etməyə və onlardakı anlaşılmazlığa aydınlıq gətirməyə cəhd edirdi. Belə şeyləri oxuduqca insan ani həvəsə də düşür. Görəsən kitabalarda yazılanlar bizə də rast olarmı deyir, etika-filan qulağa xoş gəlir deyilmi?!

Günümüzdə onu tez-tez çirkli oyun da adlandırırlar. Nə deyək, günah və baballarının boyunlarından asılı qalması təmənnisi ilə keçirik məsələnin özünə. Bizik məsələnin özü, xalq. Seçkidən seçkiyə xatırlanan biz... Tutaq ki, səs yığanların xisləti bundan ibarətdir və hər il ənənələrinə sadiq olaraq təkrarlayırlar. Niyə biz xislətimizi dəyişməyi və gözümüzü açmağı düşünmürük? Gəlib səs istəyib, vəd paylayanlara niyə ağzı açıq qulaq asırıq? Axı, onlar kosmosdan gəlməyiblər. Hər dediklərinə başımızı yelləyib, sonra dörd ildə bir xatırlanmaqdan şikayətçi olmamalıyıq. Durub analitik olaq demirəm. Ancaq, haqqlarımızı bilək, kimə və niyə səs verdiyimizi bilək. Yaxşı, tutaq ki, hər hansı bir səbəblə filankəsin oğlunun diqtəsi ilə, işinin yeridiyi yerə səs verdik, heç olmasa onun dəqiq kim olduğunu bilək ki, sonra kimdən nə istəyəcəyimizi bilək. Vəd verənlərin vədini seçkidən sonra xatırlatmağı bilək. Bütün bunlar üçün isə biz hüquqlarımızı bilmək məcburiyyətindəyik. Dövlət dilini bilmək məcburiyyətindəyik. Özümüzə və övladlarımıza hörmət ediriksə, nə özümüzün, nə də onların heç nə üçün istifadə edilməsinə yol verməmək məcburiyyətindəyik... Bunlar dilə asan, əmələ zülüm fikirlər kimi görünə bilər, iki əlli razıyam. Yaşlı nəsil iş-gücünü, dərdini-azarını bir qırağa qatlayıb, asanlıqla gürcü dilini öyrənə bilməz. Ancaq bu yaşlı nəslin oğulları, qızları, nəvələri var. Bu uşaqların, təhsil alıb, sağlam vətəndaş olmaları üçün, ən azından öz hüquqlarını bilmələri üçün heç bir əngəlləri yoxdur.

Söhbətimin yolunun seçkidən düşməsi sadəcə bir təsadüfdür, sadəcə bir misaldır. İşin əsli hər yerdə rastlaşılan və hər gün bir şəkildə özünü göstərən təhsilsizlik və bərabərində gətirdiyi naqisliklərdir. İşin özü, hər gün küçədə, bankda, yolda, bazarda, toyda və yasda təkrarlanır. Savadsızlıq sadəcə libas dəyişir ki, bu yazıda onu seçki libasında izlədik...Və azca sıxıntıya qatlaşmamaq üçün bunlara gözümüzü yumuruq. Zibilimizin üstünü örtürük, ancaq qoxusu tezgec çıxır. Bu səbəbdən də, bizim daha bir nəsli itirəcək komfortumuzun, rahatlığımızın olmadığı, daha bir nəsli savadsızlığa qurban verməyə mənəvi haqqımız olmadığı fikrimlə razılaşacağınıza ümid edirəm. Yazını sona qədər oxuma səbrini nümayiş etdirdiyinə ümid etmirəm, əminəm, dəyərli oxucum... Aydınlıqla qal...

Afayət AFİQ

2016-CI İL SEÇKİLƏRİ BÜDCƏYƏ VƏ PARTİYALARA NEÇƏYƏ BAŞA GƏLƏCƏK?

(2016-cı ilin oktyabrında keçiriləcək növbəti parlament seçkilərinin önəmini və oxucularımızın marağını nəzərə alaraq, dövlət büdcəsindən və siyasi partiyaların cibindən seçkilərə sərf olunacaq vəsaitin miqdarı barədə KİV-ə istinadən hazırladığımız materialı diqqətinizə təqdim edirik)

Milli valyutanın devalivasiyası və həyatın bahalaşması fonunda güman ki, seçkilər də bahalaşacaq. Ekspertlər seçkiqabağı kampaniya prosesində ölkəyə "qara pullar"ın daxil ola biləcəyini istisna etmirlər. Bu da ölkənin onsuz da mürəkkəb iqtisadi şəraitini pisləşdirəcək, bu isə 2016-cı ilin noyabr-dekabr aylarında hiss olunacaq.

Gürcüstanda ənənəvi olaraq seçkiləri pulun udduğunu düşünürlər. Böyük pullu və sabit siyasi struktura malik partiyalar isə çox azdır. Ona görə də səsverməyə bir-iki ay qalmış ölkəyə "qara pullar" daxil olur.

Bununla belə iri partiyaların dövlət büdcəsindən maliyyələşdiyini və çoxlu ianələr aldığını da nəzərə almaq lazımdır.

"Seçkilər bahalaşırmı?" sualına cavab vermək üçün Mərkəzi seçki komissiyasının və audit xidmətinin məlumatlarına nəzər yetirmək lazımdır. Rəsmi məlumatlara görə, büdcədən 2008-ci ilin parlament seçkiləri ərəfəsində Milli hərəkat 1 853 685 lari, "Sənayeçilər" 290 348, "Yeni sağlar 170 675, Leyborist partiyası 319 913, "Azadlıq" partiyası 145 083, Respublika partiyası 284 748, Mühafizəkarlar partiyası 284 748, Xristian-demokratlar 573 651 lari, bundan əlavə digər kiçik partiyalar təqribən 15 000 lari alıblar.

Lakin burada söhbət büdcə maliyyələşməsindən gedir. "Beynəlxalq şəffaflıq – Gürcüstan" QHT-nın məlumatına görə, həmin vaxt iqtidarda olan Milli Hərəkat seçkilərə 12 milyon lari xərcləmişdi ki, bu da həmin dövrün ən böyük müxalif hərəkatı olan "Birləşmiş müxalifət"in xərclərindən 25 dəfə çox idi. "Birləşmiş müxalifət" 2008-ci ildə seçkilərə cəmi 480 000 lari xərcləmişdi.

2012-ci ilin parlament seçkilərində isə Milli hərəkat büdcədən 1,9 milyon lari, həmin seçkilərdə qalib gəlmiş "Gürcü arzusu" bloku isə 90 333 lari almışdı.

Ölkənin bütün siyasi partiyaları ümumilikdə 32,2 milyon lari biznes ianələri almışdılar. Bunun da 21,2 milyonunu Milli hərəkat, yalnız 2 milyonunu "Gürcü arzusu" ala bilmişdi.

Iki il qabaq Gürcüstan parlamenti parlament seçkilərinin gedişində əldə olunmuş faizdən asılı olaraq siyasi partiyaların maliyyələşməsinin yeni formulunu qəbul etdi. 4%-lik həddi keçən siyasi partiyalar 60 000 laridən ibarət baza maliyyələşməsi, 8%-dən çox səs toplayanlar isə artıq 600 000 min lari alacaqlar.

Bu sistem qəbul olunanadək baza maliyyələşməsi 150 000 lari, 8%-dən yuxarı isə 300 000 lari təşkil edirdi.

Bundan başqa partiyalar səslərdən asılı olaraq maliyyələşəcəklər. Seçicilərin 200 000 səsini aldıqda, hər səs partiyaya 2 lari xeyir verəcək. Maliyyələşmənin üçüncü meyarı odur ki, hər deputata görə 500-600 lari ödəniləcək. Belə çıxır ki, fraksiyaya malik olan siyasi partiyaların hər biri əlavə olaraq 200 000 lari alacaqlar.

Partiyaların maliyyələşməsi üçün 2016-cı ildə büdcədən 12 785 000 lari ayrılıb.

2016-cı ildə sekilərin həyata keçirilməsi üçün Gürcüstan büdcəsində 34 371 400 lari nəzərdə tutulub. Bununla belə, partiyaların bəyannamədə göstərilməyən, lakin mütləq alacaqları məbləği də nəzərə almaq lazımdır. Onları da nəzərə almaqla 2008-ci il seçkiləri 33 247 840 lariyə, 2012-ci ildə isə 76 262 902 lariyə başa gəlmişdi.

Seçki texnologiyaları üzrə mütəxəssislərin rəyinə görə, 2016-cı il seçkiləri maliyyələşmə nöqteyi-nəzərindən spesifik olacaq. Belə ki, ötən illərə nisbətən bu il gərginlik dərəcəsi çox yüksəkdir. 2012-ci il seçkiləri partiya ianələri nəzərə alınmaqla 76 milyon lariyə başa gəlmişdirsə, bu il bu məbləğin 152 milyon lariyədək artmasını ehtimal etmək olar.

GFK-NİN KEÇİRDİYİ RƏY SORĞUSUNUN NƏTİCƏLƏRİ AÇIQLANDI

GFK alman-amerikan təşkilatının keçirdiyi ictimai rəy sorğusunun nəticələrinə görə, rəyi öyrənilənlərin 22,4%-i "Gürcü arzusu" partiyasını, 21,7%-i isə "Vahid milli hərəkat" partiyasını dəstəkləyir.

Araşdırma "Rustavi 2" telekompaniyasının sifarişilə keçirilib. Sorğuda 2200 nəfər iştirak edib.

Nəticələrə görə, rəyi soruşulanların 7,8%-i Paata Burçuladzenin "Xalq üçün dövlət" partiyasına, 6,2%-i isə "Müstəqil demokratlar"a səs verəcək.

Seçkilərdə iştirak edəcəyi təqdirdə "Leyboristlər partiyası" 2,8%, "Vətənpərvərlər alyansı" 2,2%, Burcanadzenin partiyası 1,6%, "Respublikaçılar partiyası" 0,6% səs alacaq.

Rəyi soruşulanların 3,9%-i seçkilərdə iştirak edəcəyi təqdirdə heç bir partiyaya səs verməyəcəyini bəyan edib. Rəyi soruşulanların 10%-i cavab verməkdən imtina edib, 19,4% isə cavab verməyə çətinlik çəkib və ya hələ qərara gəlmədiyini bildirib.

RUSİYA GÜRCÜSTANDA PARLAMENT SEÇKİLƏRİNİN NƏTİCƏLƏRİ İLƏ MARAQLANIR

Gürcüstanda keçiriləcək parlament seçkilərinin nəticələri Rusiya üçün maraqlıdır. Bu barədə RF XİN-nin rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib.

O, bildirib: "Bu, şübhəsiz ki, tamamilə və bütövlükdə gürcü xalqının səllahiyyətinə aiddir. Lakin bununla belə bu ölkədəki siyasi proseslərin nəticəsi bizim üçün maraqlıdır, bu hakimiyyətə kimin gəlməsindən asılıdır".

Zaxarova əlavə edib ki, RF-da "bu prosesləri diqqətlə izləyirlər, hakimiyyətə kim gələləcək, ölkənin elan etdiyi daxili və xarici kurs bundan asılıdır".

FRAYBURQDA FINDIQ ƏHVALATI
(SÜRREALİZM SƏHİFƏSİ)

Mirzə Cəlildə belədir: məsələn, iki uşaq güləşir, biri o birisini basır, basılan özünü sındırmamaqdan ötrü cəld durur ayağa və yalandan xəbər verir: "bay, bir fındıq tapdım".

Bir vaxt İrəvandan kirvə tuturduq və deyirdik ki, kirvə kirvənin damının üstünə çıxmaz ki, torpaq tökülər... bu öz yastıyapalaq yerində...

...əlbəttə, pərt olub yerdən qalxan "bay, bir qoz tapdım", ya da misilləmə misal üçün, "bay, bir alma tapdım" da qışqıra bilərdi, amma o, fındığa üstünlük verir ki, bunun da suveren səbəbini göydə uca Yaradan, yerdə isə unudulmaz Mirzə Cəlil bilərdi.

Fındığın səhhət üçün xeyirli olma səbəbi bəllidir: tərkibində xolesterin olmadığına görə qan-damar xəstəliklərinin yaranmasının qarşısını ala bilir, üstəlik, beyin fəaliyyətini yaxşılaşdırdığı da məlumdur.

Son vaxtlar fındığın – deyilənə görə, bu növ məmulatların kralı olan fındığın – əhəmiyyəti elə artıb ki, hətta bu yaxınlarda Türkiyənin Ordu şəhərində bir möhtəşəm və mötəbər Fındık Toplantısı da keçirildi.

Amma sözümün cücəplov canı bunda deyil...

...basılıb özünü sındırmayan "milli" Mirzə Mikrobun, yaxud Mirzə Virusun "bay, bir fındıq tapdım" deyə yalan yeltəmələri arada-sırada bəllidir. Amma Almaniyanın Frayburq şəhərində, bizim Sınıq körpüyə və düzilqarlı Əyriqara görə, Almaniyanın uzaq və ucqar Frayburq şəhərində yaşayan Sarıbek Uluxanyanın mərci uduzhauduz, birdən-birə "bay, bir fındıq tapdım" deyə bağırmağı elə həmin Frayburq şəhərində yaşayan Mirzə Oqtay Eloğluna (Allah unudulmaz Cəfər Cabbarlıya rəhmət eləsin) qəribə gəlib. Ona görə yox ki, bizim əlifbadakı "F" hərfi ilə erməni əlifbasındakı "F"-in tələffüzündə filhəqiqət fərq var: yəni bizim "fındıq" Sarıbek Uluxanyanın dilində "pındık", ya da "punduk" (ruscanın təsiri ilə belədir) şəklində səslənir. Hörmətli Hikmət Babaoğlu da Sınıq körpünün bəri üzündə, Əyriqar tərəflərdə dərin təsirə malik bir fikrində israrlı deyildimi: "... bu gün türkcə soyadı olan ermənilərin demək olar ki, böyük əksəriyyəti xristian qıpçaqlardır: Nalbandyan, Ulubabyan, Dəlləkyan, Dəmirçiyan, Sarıbekyan və sairə" (bax: Hikmət Babaoğlu. "Akdamardan Sarı gəlinədək erməni yalanı" səh.26).

Mirzə Oqtay Eloğlunun təəccübünə səbəb olan bu idi ki, Frayburq – İsfahan dostluq qrupunun tərkibinə erməni Sarıbek Uluxanyanı deyil, türk Hakan Çalhanoğlunu (məşhur futbolçu Hakan Çalhanoğlu ilə ad eyniliyi təsadüfdür) seçmişdilər. Çünki Almaniyanın Frayburq şəhəri ilə İranın İsfahan şəhərləri qardaşlaşmış şəhərlərdir və dostluq qrupunun tərkibinə hərdən-birdən əcnəbi qürbətçiləri də daxil edirdilər. Həm də ona görə ki, Frayburq almancada "azad", "azad şəhər" ("frei" azad deməkdir) anlamını verir. Yəni Avropasayağı elə mənzərə yaratmaq lazımdır ki, bəs deməzsənmi, oralarda azadlıq hamı üçünmüş.

Bax, həmin məqamda, yəni dostluq qrupuna seçilmədiyi təqdirdə Sarıbek Uluxanyan "bay, bir pındık tapdım" deyə bağırmışdı. Sizə fantazmaqoriya kimi gəlməsin: amma burasını da dəqiq bilirəm ki, Sarıbek bu ifadəni almanca deyil, fransızca bağırmışdı; çünki Fransa yaxın olduğu üçün Frayburq əhalisinin 85 faizi fransızca danışır. Amma Sarıbek Uluxanyan "bay, bir fındıq tapdım"ı hansı dildə çığırırsa-çığırsın erməni ləhcəsi hər yerdə özünü göstərməlidir axı!

Burası da var ki, Hakan Çalhanoğlu ilə Sarıbek Uluxanyan arasına düşən münaqişənin səbəbi nifaq alması yox, Frayburqun fındıq biznesi idi. Məlumdur ki, dünyada fındıq istehsalının 75 faizi Türkiyənin payına düşür. Frayburqa fındıq Türkiyənin Fındıklı şəhərindən ixrac olunurdu və burada fındıq alverini ələ keçirmək üçün Sarıbek Uluxanyan hətta Türkiyə türkcəsini də mükəmməl öyrənmişdi; çünki məcbur idi. Onun yeganə qüsuru "fındıq" sözünü erməni ünsürləri ilə tələfüz eləməsi idi. Kim bilir, bəlkə fındığı da öz adlarına çıxıb özlərinki edərdilər. Amma... Kopernik demiş, dünya doğrudan da fırlanır axı! Yoxsa ucalardan uca Yaradan istəsə bizi bir millət etməzdimi?

...İndi isə sənə Yavuz Sultan Məhəmmədin Misir səfərini xatırladıram, yadındadırmı... ordu alma bağının yanından keçib gedir. Birdən Sultanın ürəyinə şübhə düşür: "Görəsən bağdan icazəsiz alma dərən olubmu"? Əsgərlərin heybələri yoxlanılır, bir nəfərdən də olsun alma tapılmır. İndi qardaşım, Sarıbek Uluxanyan frayburqluların bağını "alma almaya bənzər" oxuya-oxuya oğurlayır, tutulanda da bağırır: "bay, bir fındıq tapdım". Ancaq alma almadır, axı, almanı fındıqla necə qarışdırmaq olar?..

P.S.

Axirət mükafatının deyil, fani dünya mükafatının dalınca qaçanlara adam necə təəssüf etməsin? Baxın. Bu günlərdə Almaniya federal məclisi "1915"-ci il olaylarını tanımağa səs verdi; tarixçilərin deyil, tarix üzrə diletantların sözü keçdi.

Sarıbek Uluxanyan dərhal Türkiyə fındığının Frayburqa idxalına qadağa qoyulmasını tələb etdi.

Yazıq Sarıbek Uluxanyan bilmir ki, İrəvan tərəflərdən olan Siranuş F. Türkiyənin Trabzon şəhəri yaxınlarında fındıq toplamaqla əldə etdiyi qazancla "Böyük Ermənistan" iddialı variasiyalarla dolu vəbalı vətənində beş baş külfət saxlayır.

Əlbəttə, deyən tapılar ki, bu cür sürrealizm səhifələri Sarıbek Uluxanyanı islah ha etməyəcək? Onsuz da o, dərin dəryaya bənzəyən dünyada çoxdan qərq olub.

...burasını da deyim ki, bunları mənə əslən Süsən-Sünbüldən olan və yuxarıda da dediyim kimi, hazırda Frayburqda yaşayan Mirzə Oqtay Eloğlu danışdı; mən də sizə çatdırmağı qərara aldım...

Mirzə Oqtay Eloğlunun bircə arzusu da var ki, onu da deməliyəm: o, yerin-göyün sahibindən rica edir ki, kaş mərkəzində Almaniyanın da yerləşdiyi qosqoca Avropanın hamiləlikdən sonrakı bic ...bəlaları olan faşizm, rasizm, nasizm, antisemitizm (və 101 dəfə və sairə və ilaxır) Süsən-Sünbül tərəflərə gəlib çıxmayaydı.

Və... Oqtay Eloğlu Süsən-Sünbüldə yeddi fındıq ağacı əkib yenidən "azad şəhər" mənasını verən Frayburqa – qürbətə yola düşdü...

İBRAHİMXƏLİL

BİR DİL – BİR İNSAN

Nəhayət ki, imtahanlar bitdi. Yay gəldi, insanların üzü gülməyə başladı. Çünki istirahət üçün hərənin bir planı var. Kimləri gedib dənizin dadını çıxarcaq, başqa biriləri isə dağa-bağa, kəndinə-kəsəyinə gedəcək. Bir bağqaları isə ən yaxşı istirahətin elə iş olduğunu düşünərək, monoton həyat tərzinə davam edəcəklər.



Yayda mənim də planlarım çox olur. Məsələn bir neçə il əvvəl gitaraya həvəs etmişdim. Öz-özümə dedim ki, mən bu yay gitara çalmağı öyrənməliyəm. Eşitmişdim ki, qızların gitara çalan oğlanlardan xoşu gəlir. Evdəkilər də sağ olsunlar, dedilər ki, madəm həvəs edibsən, həvəsini qırmayaq. Ucuzvarisindən bir gitara aldılar. Kursa yazılıb artıq xəyalıma qovuşacağımı düşünürdüm ki, gitara müəllimim gitarama baxıb dedi ki, apar tulla. Sən demə bizi əfəl bilib başımızı qatıblar. Aldığımız gitara olduqca keyfiyyətsizdi və dərs almağım üçün uyğun deyildi. Belə yerdə deyiblər, "ucuz ətin ucuz da şorbası olar". Nə isə, gitara xəyalımdan bir müddətlik vaz keçməli oldum.

Sonra zatən başqa məşğuliyyətlər tapdım özümə. Məsələn, keçən yay da qərar verdim ki, idmanla məşğul olub, yaxşı bədən "yığacam". Yenə hardasa eşitmişdim ki, guya bu sağolmuş qızların idmançı oğlanlardan da xoşu gəlir. Nəticəsi nə oldu deyə düşünürsünüzsə, bəli, idmanla məşğul oldum, amma bədən zad "yığa" bilmədim. Çünki bir ay məşq etməklə bədən yığmaq mümkün olsa, yolda-izdə qabırğalarını saydığınız cavanların hamısı Arnold Şvartsenegger kimi olardı. Bu il isə qərar verdim ki, mən yenə nəsə etməliyəm, amma bu dəfə qızlar üçün yox. Artıq bir məqsədim var. Dil öyrənmək. İnternetdən istifadə edərək əldə etdiyim bir çox faydalı materialların köməyi ilə hər gün bir neçə saat vaxt ayırraraq dillər öyrənməyə çalışıram. Daha doğrusu, az-çox bildiyim dilləri inkişaf etdirmək istəyirəm. Orta səviyyədə anlayıb-danışdığım dövlətimizin rəsmi dili gürcücəni daha da mükəmməlləşdirmək, yenə orta səviyyədə bilib, başa düşdüyüm, ancaq danışmaqda çətinlik çəkdiyim rus dilinin danışıq səviyyəsini normal öyrənmək və başlanğıc səviyyəsində olduğum ingilis dilini ən azından anlayacaq qədər öyrənməyi özümə ilkin məqsəd elədim. Dil öyrənmək doğurdan da gözəl və faydalı bir məşğuliyyətdir. Bu gün Gürcüstanda yaşayırıqsa və söz sahibi olmaq istəyiriksə, gürcü dilini mükəmməl bilməliyik. İngilis dili dünyada beynəlxalq dil olaraq qəbul edilirsə, ingilis dilini də öyrənməliyik. Dünyanın ən böyük ölkəsi olan Rusiya, həm də yaxın qonşumuzdursa, rus dilini də bilməliyik. Filan dili öyrən deyəndə hələ də bəzi insanlarımız, təəssüf ki, "onlar bizim dili bilirmi" deyə gülünc bir fikir səsləndirirlər. Dil öyrənmək, dilini öyrəndiyin hansısa bir millətin qarşısında alçalmaq deyil. Əksinə ucalmaqdır. Çünki hansısa bir millətin, ölkənin dilini öyrənərək, siz eyni zamanda o millətin, ölkənin mədəniyyətini, tarixini, insanlarının düşüncə tərzini də dərindən öyrənmiş olursunuz.

Yazımın son qismində isə dillər haqqında qısa bir məlumat vermək istəyirəm. Oxucular arasında həm gürcü, həm ingilis, həm rus dilini bilib, bunlardan əlavə yeni və fərqli bir dil axtarışında olan kimsələr ola bilər.

Birləşmiş Krallıqda fəaliyyət göstərən ən nüfuzlu dil və təhsil qurumu "British Council"un araşdırmasına görə, gələcəyi ən parlaq olan dil ispan dilidir. 21 ölkənin rəsmi dili olub, dünyada ən çox rəsmi dil olaraq qəbul edilən və 400 milyon insanın ana dili olan ispan dili, xüsusilə Latin Amerikasının böyük bir hissəsini əhatə edir. İspan dilinə şəxsən mənim də marağım var və öyrənmək istərdim. Çünki ingilis dilinə baxanda daha sadə dildir. Ən azından ona görə ki, yazılışı və oxunuşu, demək olar ki, eynidir. Gələcəyi parlaq olan bir digər dil isə çin dilidir. Dünyada ən çox danışılan dildir. Çin əhalisinin sayına nəzər salsaq, bu o qədər də anormal deyil. Ancaq son illərdə Çinin bütün dünyaya olan təsiri ortadadır. Çin bazarı dünyanın demək olar ki, hər bir ölkəsinə daxil olmağı bacarıb. Bu baxımdan çin dilini öyrənmək xüsusilə iş həyatınızda çox yararlı ola bilər.

Ümidvaram ki, bu yazım dil öyrənmək yolunda həm sizə, həm də mənə gözəl bir motivasiya olacaq. Ən qısa zamanda sevdiyiniz bir dili öyrənməyə başlayaraq, özünüzə bir insan qata bilərsiniz. Çünki nə deyiblər? Bir dil, bir insan...

Anar RAFİQOĞLU

GÜRCÜSTAN ƏHALİSİNİN 50%-İ ƏRZAQ ƏLDƏ ETMƏK PROBLEMİ YAŞAYIR

Gürcüstan əhalisinin 50%-inin ərzaq əldə etmək sahəsində maddi problemi var. Bu barədə "Oksfam" QHT-nın araşdırmasında məlumat verilir.

Gürcüstanda yaşayan qadınların cəmi üçdə bir hissəsi və uşaqların 34%-i ət məhsullarından istifadə edir. Yaşlı əhalinin cəmi 24-25%-inin A vitamini ilə zəngin olan heyvan mənşəli ərzaqdan istifadə etmək imkanı var.

Ölkə əhalisinin 50%-i ərzaq, 61%-i ət və balıq, 45%-i meyvə-tərəvəz, 20%-i süd məhsulları əldə etmək problemi yaşayır.

Ailələrin 14%-i müntəzəm şəkildə yemək almağa borc pul götürür. 10 yaşdan 17 yaşadək yeniyetmələrin 50%-i vitamin, zülal, dəmirlə zəngin olan ərzaq çatışmazlığı hiss edir.

"Oksfam" araşdırmalar və BMT-nin kənd təsərrüfatı və ərzaq təşkilatının məlumatları əsasında Cənubi Qafqaz ölkələrində ərzaq təhlükəsizliyini qiymətləndirərək, məhsul istehsalı indeksinin aşağı, qida məhsullarının qiymətinin isə çox yüksək olduğu qənatinə gəlir.

Gürcüstanda və Ermənistanda istifadə olunan ərzağın 50%-dən çoxu idxalın payına düşür, bu da regionda ən yüksək göstəricidir. Ermənistanda və Gürcüstanda qida məhsullarının istehsalçıları əsasən qadınlardır.

Ermənistanda əhalinin gəlirinin 64%-i, Gürcüstanda isə 54%-i qida məhsullarına sərf olunur.

QƏDİM TİFLİSİN SAZ VƏ SÖZ USTALARI

(əvvəli qəzetimizin 23,24,25-ci saylarında)

Sayat Novanın müasiri və onun istedadlı davamçılarından biri Şamçı Melkodur. Şam satan və şamçı olduğunadn özünə bu təxəllüsü götürmüşdür.

18-ci əsrin 50-ci illərində Marneulidə anadan olub. O da üç dildə qoşqular yazıb. Onun şahzadə Parnavaz və Vaxtanq ilə yaxın əlaqəsi olub. O, öz müxəmməsində şahzadə Parnavaza xatırladır "Ey Müxəmməs, başqa bir şirin səssən, Şamçı Melko Parnavazın qulusan". Qriqol Orbeliani onun bir sözünü epiqraf götürərək, bir sözünü dəyişib, sanki doğmalaşdırıb: "Ey müxəmməs, sən nə şirin səssən!".

Qədim Tiflis bohemasının koloritli nümayəndələrindən biri Biçarə (1855-1935) Vaso Beriyev, Berişvilidir. Biçarənin ata-anası Qori qəzasının Sveneti kəndindən gəlmə olub. Biçarənin tərcümeyi-halını İ. Qrişaşavili onun öz dilindən yazıb: Qəhvəxanaya getməyə başlayanda 18 yaşında idim. Aşıqlar ilə söhbəti və onlardan məsləhət almağı çox sevirdlim. Bundan sonra özüm də qəhvəxana açdım. Aşıqların xeyir-dua mərasimi olanda mənə də xeyir-dua verdilər və adımı Biçarə qoydular, bu da ki, yazıq mənasını verir. Yazıb-oxumağı heç bilmirəm və öyrənməmişəm. Qələmin nə olduğunu da ayırd edə bilmirəm. Şeiri yazan zaman hecaları təsbehdə sayıram". Qeyd etmək lazımdır ki, onun şeirləri heç bir zaman nəşr olunmayıb , dildən-dildə dolaşıb, Tiflis camaatı arasında oxunub. Qrişaşvili onu "Tiflisin xalq şairi" adlandırıb.

"Kişi gərək ədəb-ərkanlı ola" adlı şeiri qoşma formasında, "Bu zamana kimə qalıb" rast , "Sevgilimə dedim" üçlük, "Sevgilim məni bu günlərə saldı" dübeyti, "Həyat mənə əzab verir" şur üstündə yazılıb.

O, bir təcnisində deyir:

Ey əzrail, nədir fikrin, öldür məni, gözləyirəm səni – şen geli,

Bilirsən ki, sənin yeminəm, mən qoyunam, sən canavar – şen mqeli.

Burada o, göründüyü kimi, cinas sözlərdən ustalıqla istifadə edib.

Qədim Tiflis aşıqlarından biri də Hazira olub. Haziranı Qirişaşvili gürcü Qriqoryan adlandırıb. Onun verdiyi məlumata görə, Hazira (Abram Abramov) 1845-ci ildə Borçalı qəzasının Şulaveri kəndində doğulub.

Hazira üç dildə gürcü, Azərbaycan və erməni dillərində qoşqu qoşur və oxuyurdu. Özünün sazandələrdən və çalğıçılardan ibarət dəstəsi var idi. İosif Qrişaşvili özünün "Qədim Tiflisinin ədəbi boheması" kitabında yazırdı: "Haziranın sevimli çalğı aləti dəf idi. O, qəlbinin qəm-qüssəsini bu alətin müşaiyəti ilə toxuyurdu. Hazira özünün çağırışları ilə əsil bohema idi. O, şeirlərini bədahətən söyləyirdi və kağız üzərinə köçürürdüsə, özü belə onu bir daha oxuya bilmirdi... Haziranın bütün qoşquları mahnı üçün – müxəmməs qaydasında yazılmışdır...".

Hazira yazır "Nənəm gürcü qızı idi, qareceli Ğandarelinin qızı Tamar. On yaşına kimi gürcü kimi onun əlində böyümüşəm və ermənicə heç nə bilmirdim. 15 yaşına çatanda məni Tiflisə gətirdilər və sirac, yəni şərabçı yanında şəyird qoydular. Bu zaman şəhərdə aşıqların hər bazar günü mərəkə keçirməsi adi hal almışdı. Mən tez-tez ora qulaq asmağa gedirdim. Budur, məhz elə buradan mahnılara qarşı məndə sevgi duyğuları baş qaldırdı. Bu sevgi məni nifrət etdiyim kitabları oxumağa vadar etdi". ("Teatr və həyat" jurnalı, 1915, №1).

Onun "Sevmirəm", "Nə pis zamanadır", "Hər tərəfdən", "Eşşək" qoşquları müxəmməs üstündə yazılıb. "Gəl bir görüm, mənim Darecanım", "Dünyada bədbəxt məxluq" qoşması, "Dərin yuxuya getmə", gəraylısı, "Doğrudan da əsil nazla böyüdülmüş qadınsan" müxəmməsi, "Məhəbbət" təcnisi poetik cəhətdən nəzəri cəlb edən şeir nümunələridir. Onun kərəmi, narıncı üstündə yazdığı qoşquları maraqlıdır. "Gəl oğlum, gəl yanıma" şeiri bayatı üsulunda yazılıb.

Qədim Tiflisə münasib bir aşıq kimi formalaşan Hazi-

ra 1874-cü ildə yazırdı: "1874-cü ildə artıq tanınmış aşıq idim. Qəhvəxanada yazılmış müəmmanı divardan asdım. Bahalı şalı da üstündən. Ona 25 manat da pul bağladım və aşıqları deyişməyə dəvət etdim. Kim o müəmmanı açsa idi, həmin bahalı şal və pul onun olmalı idi və mən üstənlənmiş olurdum. Bütün İran və Osmanlıda ən ünlü olan aşıqlar gəldilər, amma hamısı məğlub olaraq getdilər». ("Teatr və həyat" jurnalı, 1915-ci il, №1).

Haziranın onlarca kitabı nəşr olunub. İlk kitabı "Dastan və Ağbulaq çolündə qadının müxəmməsi" 1881-ci ildə nəşr olunub.

Qədim Tiflisin el nəğməkarı, ozanlarından biri də David Givişvilidir. Tiflisdə anadan olub, yazıb oxumağı anasından öyrənib. Onun kitabları arasında ən çox yayılan "Ozan", "Bazar", "Tutuquşu" və "Koroğlu" olub. Qaçaq Koroğlu dastanını aşıq Yakob Stepanovun dilindən eşidərək, Azərbaycan dilindən gürcü dilinə tərcümə etmişdir. Bu tərcümə həmin vaxtlar dastan populyarlığıl ilə Tiflis oxucuları arasında geniş yayılmışdı.

El şairlərindən biri də Skandar Novadır. Onun əsil adı Giorgidir. Sayat Novanı təqlid edəndən sonra onu Skandar Nova adlandırıblar. O, onlarca kitabın müəllifidir.

Onun "Ah, gözlər, gözlər", "Ey qadın, əgər öz yaradanını sevirsənsə", "Bir an da sənsiz dözə bilmərəm", "Mən sənənəm, sən mənim", "Heç kim bilmir", "Hər iki gözün işığı", "Dünyaya", "Mənim fikrim" şeirləri o zaman çox populyar idi.

Söz ustalarından biri də əslən Tiflisli olan Anton Ganciskarelidir. Soyadından da göründüyü kimi, Tiflisin gündoğan tərəfi Gəncə qapısı adlanırdı. Anton da bu adı, güman ki, bu məhəllədən olduğundan özünə təxəllüs götürüb. İosif Qrişaşvili "Qədim Tiflisin ədəbi boheması"nda yazırdı: "Ganciskareli elə ilk çıxışından populyar oldu. Onun poeziyası istehza poeziyasıdır. Onun ürəyi səmimiyyətinin açıq taxıl anbarıdır. O, ilk anlarda Givişvilinin, Skandar Novanın təsiri altında idi. Aşıqanə təcnislər yazırdı, lakin tezliklə bu ədəbi yapıncını atdı. Onun şeirlərinə artıq geniş xarakter verildi. O, həyatın hər cür eybəcərliklərinə - rüşvətxlorluğa, insanların fırıldaqlarına, məhəbbətin xırdalanmağına, dostların dözümsüzlüyünə, güclüllərin kobudluğuna, ədalətsizliyə, dövlət nizam-intizamsızlığına və ailə əxlaqsızlığına toxunur. Anton Ganciskarelinin böyük müşahidə qabiliyyəti vardır. O, həyatın ədalətsizliyini yuxarıdan seyr edir. Onun istedadı sərbəstdir və oynaqdır".

Anton Ganciskarelinin 1892-ci ildən 1916-cı ilədək 25 dən artıq kitabı işıq üzü görüb. Onların arasında "Dekatend" cib dəftəri və müxtəlif şeirləri əhatəlidir.

Həmin dövrlər aşıq olmayan, amma aşıq qoşquları yazan müəlliflər olub. Sayat Nova, Besiki dövründə yaşayan bu müəlliflər müxəmməs üstündə şəhər poeziyası nümunələrini yaradıblar. Məsələn, II İraklinin oğlu Şahzadə İlya. Onun canlı belə bir ifadaəsi o vaxtar çox yayılmışdı: "Gözəl qadına inanan oda düşsün". Onun bayatıları qaraçoxelilər tərəfindən çox sevilirdi. Eləcə də şahzadə Davidin şeirləri indiyədək qorunub saxlanılıb. "Koroğlu" pyesini yazan dramaturq Zurab Antonovun aşıq poeziyası ilə əlaqəsi olmasa da, onun bu pyesdəki bir qoşması həmin vaxtlar çox yayılmışdı.

Sən Ərzurumun dan ulduzusan, Gülnara,
Nur saçmaq üçün doğan, ey mənim həyatım.

Dimitri Tumanişvilinin yaradıcılığı da çox maraqlıdır. Onun bir şeiri elə geniş yayılmışdı ki, onu XIX əsrin 20-ci i llərində Tiflisdə ilhamla oxuyurdular və bu hava Ərzuruma doğru gedən rus şairi Aleksandr Puşkinin də diqqətini çəkib.

Qədim Tiflisinin saz, söz ustaları barədə çox söhbət açmaq olar, lakin bir şeyi qeyd etmək lazımıdır ki, bu qədim Tiflisin saz-söz sənəti tarixinin müəyyən bir dövründə, onun qədimliyinə öz dərin izini salmış və öz möhürünü vurmuşdur. Tarixin müəyyən dövrlərində taleyimizin bağlı olduğu qədim Tiflisin bir vaxtlar doğma dilimizdə çalıb oxuyan sazandələrinin, aşıqlarının xüsüsi çalarlar əlavə etdiyi həmin dərin izləri və möhürü əbədi olaraq qoruyan bu qədimlik, bu qədəmliyin özünəməxsus koloriti bizim üçün də doğma və əzizdir.

Mirzə MƏMMƏDOĞLU

YÜKSƏK DAĞLIQ MƏNTƏQƏLƏRİN SİYAHISI GENİŞLƏNDİRİLİR

Gürcüstanın yüksək dağlıq yaşayış məntəqələrinin siyahısına 99 kənd də əlavə olunacaq və ümumilikdə 38 min adamı əhatə edəcək. Bu barədə baş nazir Georgi Kvirikaşvili məlumat verib.

Baş nazir bəyan edib: "Gürcüstanın yüksək dağlıq kəndlərinin siyahısına 99 məntəqənin daxil edilməsinə toxunmaq istəyirəm. bu ümumilikdə 38 min adamı əhatə edir. Bu, çox vacibdir, belə ki, qanunda nəzərdə tutulan sosial güzəştlər əlavə olaraq 38 min adama da şamil olunacaq. Bu kəndlərin indiyədək kənarda qalması dəqiq siyahının və sistemli məlumatların yoxluğu ilə bağlı idi. Biz bu sistemi təkmilləşdirmişik. Mən siyahıya 38 min adamın və 99 yeni məntəqənin əlavə olunması təşəbbüsü ilə çıxış edirəm".

Cari ilin əvvəlində yüksək dağlıq regionlar haqqında qanun qüvvəyə minmiş və bu regionun sakinləri üçün sosial və vergi güzəştləri nəzərdə tutulmuşdur.

Qanun dəniz səviyyəsindən 800 metrdən çox yüksəklikdə yerləşən kəndlərə şamil edilir. 2015-ci ilin yanvarından dövlət burada yaşayan ailəyə birinci və ikinci uşaq üçün il ərzində 100 lari, hər üçüncü və sonrakı uşaq üçün 200 lari həcmində yardım ödəməlidir.

Yüksək dağlıq kəndlərdə işləyən tibb bacısı 180 lari, həkim isə 360 lari həcmində əlavə yardım almalıdır. Əlavələr bu kəndlərdə işləyən pedaqoqlar üçün də nəzərdə tutulub. Sentyabrdan yüksək dağlıq ərazilərdə yaşayan pensiyaçılar pensiyalarını 20% əlavə ilə alacaqlar.

ÖLKƏMİZİN YAŞLI MƏHBUSLARI AZADLIĞA ÇIXIRLAR

Gürcüstanda yüzdən artıq məhbus "qocalığa görə" azadlığa çıxacaq. İyunun 24-də ölkə parlamenti yaşlı məhbuslar üçün amnistiya haqqında qərar qəbul edib. 70 yaşlı kişilər və 65 yaşlı qadınlar vaxtından əvvəl azadlığa buraxılacaqlar. "Amnistiya haqqında" qanun layihəsi 2015-ci ilin dekabrın 31-dək nisbətən ağır cinayətlər, habelə ehtiyatsızlıqdan cinayət törətmişlərə şamil edilir.

Ehtiyatsızlıqdan törədilmiş cinayət insan ölümünə səbəb olmuşsa, bu zaman onun qanuni varisi məhkəmədə amnistiyanın cinayəti törətmiş şəxsə şamil edilməsini təsdiqləməlidir.

118-ci və 344-cü maddə ilə mühakimə olunanlar cəzalarını çəkməkdə davam edəcəklər. Azad olunan şəxslərin məhkumluğu ləğv olunacaq. Amnistiya qanun qüvvəyə mindikdən bir ay sonar həyata keçiriləcək.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

30 iyun 2016-cı il
№012 (26)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / "იუნი ილლი" საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

QƏDİM SİVİLİZASİYALAR REYTİNQİNDƏ GÜRCÜSTAN ÜÇÜNCÜDÜR

Gürcüstan qədim sivilizasiyalar reytinqinin ilk onluğuna düşüb. Bu barədə məlumatı The toptens.com portalı yayıb.

Gürcüstan özünün qədim sivilizasiyası, xalqları, ənənələri, yazısı və tarixi ilə üçüncü pillədə qərarlaşıb. Yunanıstan və Misir isə ölkəmizdən öndədirlər. Birinci pillədə Yunanıstan, ikinci də isə Misir mövqe tutub.

Reytinqi qədim sivilizasiyalar üçün xarakterik olan meyarlarla tərtib edirlər. Veb səhifə istifadəçilərinin imkanları var ki, şərh şəklində bu və ya digər ölkə haqqında fikirlərini yazsınlar, habelə ölkənin nəyə görə qədim sivilizasiyaya məxsus olduğunu əsaslandırsınlar.

Hal-hazırda Gürcüstan haqqında 100 şərh yazılıb və onun reytinqi 9% təşkil edir. Qədim sivilizasiyalar reytinqində növbəti yerləri Çin, Roma, Hindistan kimi ölkələr tutur.

6 YAŞLI AZƏRBAYCANLI ŞAHMATÇI AVROPA BİRİNCİSİ OLDU

Azərbaycanın 6 yaşlı istedadlı şahmatçısı Ziya Məmmədov 7 yaşlılar arasında Avropa çempionu olub. Yayılan məlumata görə, azərbaycanlı şahmatçı özündən böyüklərlə mübarizə apararaq mümkün 9 xaldan 8 xal toplayıb və çempionluğunu təmin edib.

Gənc şahmatçı 7 oyunda qalib gəlib və 2 qarşılaşmanı heç-heçə ilə başa vurub. Xatırladaq ki, şahmat üzrə Avropa çempionatı Yunanıstanın Halkidiki şəhərində keçirilib.

İngiltərə millisinin bayrağı altında çıxış edən Royal Şiraz isə turnirin ikincisi olmağa müyəssər olub. Rusiyalı şahmatçı Savva Vetoxin üçüncü yerlə kifayətlənib.



Qeyd edək ki, turnirin ilk onluğunda Türkiyədən 4 şahmatçı yer tutub.

EVDƏ PLASTİLİNİ NECƏ HAZIRLAMAQ OLAR?

Uşaqların yaradıcılıq, zehni və xəyal güclərini inkişaf etdirən rəngarəng plastilinləri valideynlər evdə də hazırlaya bilərlər. Bu rəngarəng plastilinləri tamamilə təbii və hər evdə olan vəsaitlərlə hazırlamaq çox əyləncəlidir. Çünki hazırlanması ən azı onunla oynamaq qədər maraqlıdır. Uşaqlar üçün plastilin – oyun xəmiri hazırlamağın qaydasını təqdim edirik.

Evdə iki cür plastilin hazırlaya bilərsiniz. Bunlardan biri xəmiri bişirərək, digəri bişirilmədən hazırlanır. Bişirilən oyun xəmiri daha asan formada ərsəyə gəlir. Bişirilməyən xəmir istehsalı isə daha praktikdir və valideynlər səbirsiz uşaqları gözlətmək məcburiyyətində qalmırlar. Cəmi 2-3 dəqiqə içində hazırlanır.

1. Çiy plastilin

3 stəkan un, 1 stəkan su, 2 xörək qaşığı duru yağ, ¼ stəkan duz. Xəmiri rəngləmək üçün qida boyası yerinə tərəvəz və meyvələrdən istifadə edə bilərsiniz.

Sarı rəng üçün zərdəçal, qırmızı və tonları üçün çuğundur suyu, moruq, böyürtkən və ya gilənar suyu, yaşıl üçün ispanaq suyu, qəhvəyi üçün qəhvə istifadə edə bilərsiniz.

Hazırlanması:

Qida boyasından başqa digər bütün vəsaitləri qarışdırın. Hazırladığınız xəmiri kiçik parçalara ayırın. Hər parçaya fərqli rəngdə qida boyası əlavə edin və xəmirləri təkrar yoğurun. Qida boyalarını qarışdıraraq fərqli rənglər də əldə edə bilərsiniz.

2. Bişmiş plastilin

1 stəkan un, 1 stəkan su, yarım stəkan duz, 2 xörək qaşığı duru yağ, 2 xörək qaşığı alma sirkəsi, qida boyası və ya dırnaq boyası.

Hazırlanması:

Əvvəl unu və duzu qarışdırın. Alma sirkəsini su ilə birlikdə əlavə edin. Hazırladığınız xəmiri neçə rəng hazırlayacaqsınızsa, o qədər hissəyə bölün. Qida boyalarını duru yağ ilə birlikdə xəmirlərə əlavə edin və vam odda əzərək bişirməyə başlayın. Xəmir ortada toplanaraq tavadan ayrıldıqda, odun üzərindən götürün və soyumağa qoyun. Hazırladığınız xəmiri qurumaması üçün mütləq ağzı bağlı plastik qablarda saxlayın.

YAXINLARDA GÜRCÜSTAN SƏMASINDA "HAVA TAKSİLƏRİ" GÖRÜNƏCƏK

"Acara qrup" lojistikada fəallaşır. Şirkətin marketinq və biznesin inkişafı üzrə direktoru Otar Berişvilinin bildirdiyinə görə, Gürcüstanın hava taksisi "Aviator" adı altında fəaliyyət göstərəcək.

Onun sözlərinə görə, onlar artıq Amerikadan səkkiz yerli Beechcraft alıblar, təyyarələr artıq Gürcüstana gətirilib. Hava taksiləri Kazbeqi, Batumi, Svaneti və aerodrom olan digər istiqamətlərə ucacaq. Berişvili qeyd edib ki, şirkət eyni zamanda Gürcüstanda aerodromların inkişaf etdirilməsi üzərində işləyir.

Xidmətin dəyəri və investisiyanın məbləği barədə dəqiq fikir söyləməyən Berişvili onu əlavə edib ki, təyyarələrin alınması üçün vəsait "Gürcüstan Bankı"ndan əldə olunub, investisiyanın qalan hissəsini isə şirkət öz şəxsi vəsaiti hesabına həyata keçirib.

AZƏRBAYCAN BOKSÇULARI SXİNVALİYƏ GETMƏKDƏN İMTİNA EDİBLƏR

Azərbaycan Boks Federasiyası öz idmançılarını Gürcüstanın Rusiya tərəfindən işğal olunmuş Sxinvali regionuna göndərmək niyyətində deyil.

Azərbaycan Boks Federasiyasında Vesti.Az agentliyinə bildiriblər: "Nə Azərbaycan yığmasının boksçuları, nə də Azərbaycan klublarının idmançıları bu separatist regiona getməyəcəklər".

Qeyd edək ki, iyunun 25-də işğal olunmuş Sxinvalidə "Qondarma Cənubi Osetiya prezidentinin kuboku uğurunda boks üzrə I Beynəlxalq turnir" keçirilib. Məlumata görə, turnirə Moskvadan, Rusiya tərəfindən işğal olunmuş regionlardan (Krım, Abxaziya, Dnestryanı), habelə Azərbaycan, Ryazan, Vladiqafqaz, Çexiya və Qırğızıstandan boksçular dəvət edilib.

GÜRCÜSTANDA BMT-NİN ART-KOLLEKSİYASI ÜÇÜN HEYKƏLLƏR YARADILACAQ

Gürcüstanın mədəniyyət və abidələrin mühafizəsi nazirliyi BMT-nin məşhur incəsənət kolleksiyasının tərkib hissəsi olacaq heykəltəraşlıq əsərləri yaradılması üçün müsabiqə elan edib.Müsabiqədə iştirak etmək istəyənlər bu barədə nazirliyin saytında ətraflı tanış ola bilərlər.

BMT-nın incəsənət kolleksiyası dünyanın məşhur boyakarlarının və heykəltərəaşlarının beynəlxalq əməkdaşlığa və tolerantlığa həsr olunmuş əsərlərindən ibarət olub, BMT-nin Nyu-Yorkdakı mənzil qərargahının park və vestibüllərində yerləşir.

Müəlliflərə Gürcüstanın dövlətçiliyi, tarixi və mədəniyyəti mövzusunda heykəllər yaratmaq təklif olunur. Qalib gələn layihənin müəllifi 5 min lari həcmində mükafat alacaq. Nazirlik heykəltəraşlıq əsərinin yaradılması üçün 25 min lari ayırır.Müsabiqədə peşəkar heykəltəraşlar, arxitektorlar və rəssamlar iştirak edə bilərlər.

Layihələrin son təqdim olunma tarixi 8 iyuldur. Layihələrə iyulun 12-də baxılacaq, müsabiqənin nəticələri isə iyulun 14-də bəlli olacaq.

BAŞSAĞLIĞI

Qardabani rayonunun Nəzərli ictimai məktəbinin pedaqoji kollektivi iş yoldaşları Gülnarə Qurbanovaya həyat yoldaşı

Məhəmməd Rəhim oğlu Kazımovun (Kərimağalı)

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

***Redaktor*:**
Afiq Muxtaroğlu
***Yayım Direktoru*:**
Hacı Bəkiroğlu

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: *(+995) 595 92 25 70*
599 54 12 92
EMAİL: *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.